Xalq qəzeti.- 2025.- 12 iyun (№ 119).- S. 11

# Gəncədə nizamişünas alim yad edilib

**Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin təşkilatçılığı ilə tanınmış ədəbiyyatşünas alim, Əməkdar elm xadimi, "Şöhrət" ordenli professor Xəlil Yusiflinin (1935 – 2022) anadan olmasının 90 illiyinə həsr edilmiş "Azərbaycan və dünya nizamişünaslığının aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



Konfransa Bakı, Gəncə, Naxçıvan, Şirvan, Quba, Qazax və Lənkəran şəhərlərindən, həmçinin Türkiyə, Özbəkistan, İran və Pakistandan alim və tədqiqatçılar qatılıblar. Əvvəlcə alimin ömür yolu və elmi-pedaqoji fəaliyyəti haqqında AMEA-nın Gəncə Bölməsi tərəfindən ərsəyə gətirilən "Nizamişünaslığımızın patriarxı. Xəlil Yusifli - 90" adlı qısametrajlı sənədli film nümayiş olunub.



Beynəlxalq konfransı giriş sözü ilə açan AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev professor Xəlil Yusiflinin böyük mütəfəkkirimiz Nizami Gəncəvinin irsinin araşdırılmasında, o cümlədən onun yubileyləri ilə bağlı Gəncədə möhtəşəm işlərin həyata keçirilməsində, muzeyinin yaradılmasında, şairin ata-və anasının sərdabəsinin bərpa olunmasında, eləcə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətində mühüm rol oynadığını da diqqətə çatdırıb.

Toplantı iştirakçılarının diqqətinə hazırda ezamiyyətdə olan AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin göndərdiyi çıxışın mətni çatdırılıb. Gəncə şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov çıxışında Nizami yurdunda böyük şairin yaradıcılığına həsr olunan tədqiqatlara daim xüsusi fikir verildiyini, bu sahədə çalışmış alimlərimizin sırasında Xəlil Yusiflinin adının böyük elmi nüfuz sahibi kimi çəkildiyini qeyd edib.

Konfransda digər maraqlı çıxışlar olub. Görkəmli alimin övladı, Gəncə Dövlət Universitetinin dosenti Afaq Yusifli çıxışında foruma qatılan bütün iştirakçılara, dərin minnətdarlıq hisslərini ifadə edib.

Beynəlxalq konfrans "Nizami Gəncəvi və Türk Dünyası", "Nizami Gəncəvi və dünya ədəbiyyatı", "Nizami Gəncəvi və incəsənət", "Müasir Azərbaycan nizamişünasliğında yeni çağırışlar", "Xəlil Yusiflinin nizamişünaslıq fəaliyyəti" və "Xəlil Yusifli və klassik Azərbaycan ədəbiyyatı" adlı 6 bölmədə davam etdirilib. Konfransa, bütövlükdə, 110 elmi məruzə təqdim edilib.

Konfransdan sonra iştirakçılar dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***